# AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNDA KOS-LARIN İNKİŞAFININ STİMULLAŞDIRILMASI

DOİ: https://doi.org/10.71447/2413-7235-2025-1-31

**Ülkər Ş. Salıfova**
*İş yeri: SOCAR "Azəriqaz İstehsalat Birliyi", böyük mühəndis*
*E-mail: salifovaulker@gmail.com*
***ORCID:*** *0009-0009-9819-0941*

**Xülasə**
Məqalədə, Azərbaycanda qeyri-neft sektorunda kiçik və orta sahibkarlıq subyektlərinin (KOS) inkişafının stimullaşdırılması istiqamətləri geniş şəkildə təhlil olunur. Müəllif qeyd edir ki, KOS-lar müasir iqtisadiyyatın mühüm hərəkətverici qüvvəsidir və onların fəaliyyəti iqtisadi şaxələndirmə, məşğulluğun artırılması, regional inkişafın təmin olunması, ixrac potensialının genişləndirilməsi və innovasiya fəaliyyətinin gücləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. KOS-lar iqtisadiyyatın çevikliyini artırmaqla yanaşı, sosial rifahın yaxşılaşdırılmasına da mühüm töhfə verir.
Araşdırmada qeyd olunur ki, son illərdə Azərbaycan hökuməti tərəfindən həyata keçirilən iqtisadi islahatlar və sahibkarlığın dəstəklənməsi tədbirləri nəticəsində qeyri-neft sektorunun ÜDM-də payı 2010-cu illə müqayisədə əhəmiyyətli dərəcədə artaraq 65–67%-ə çatmışdır. KOS-ların iqtisadi fəallığı, regional təsiri və innovativ potensialı da yüksəlməkdədir. Bununla belə, onların inkişafını məhdudlaşdıran problemlər hələ də qalmaqdadır. Maliyyə resurslarına çıxışın məhdudluğu, kredit faizlərinin yüksəkliyi, texnologiya və innovasiyalara zəif inteqrasiya, infrastruktur problemləri, idarəetmə bacarıqlarının və insan kapitalının çatışmazlığı, eləcə də beynəlxalq bazarlara çıxışdakı çətinliklər KOS-ların potensialını tam reallaşdırmağa imkan vermir.
Məqalədə, bu problemlərin aradan qaldırılması üçün əsas stimullaşdırıcı istiqamətlər müəyyən edilmişdir. Buraya dövlət dəstək mexanizmlərinin təkmilləşdirilməsi, vergi və inzibati prosedurların sadələşdirilməsi, rəqəmsallaşma və innovativ təşəbbüslərin təşviqi, ixrac missiyalarının və beynəlxalq əməkdaşlığın genişləndirilməsi, regionlarda infrastrukturun və insan kapitalının inkişafı daxildir.
Nəticə olaraq, KOS-ların inkişafının stimullaşdırılması Azərbaycanın iqtisadi təhlükəsizliyinin, dayanıqlı inkişafının və sosial rifahının təmin edilməsi üçün mühüm amil kimi qiymətləndirilir. KOS-ların gücləndirilməsi həm iqtisadiyyatın neft gəlirlərindən asılılığını azaldacaq, həm də qeyri-neft sektorunu milli iqtisadiyyatın əsas aparıcı qüvvəsinə çevirəcəkdir.
***Açar sözlər:*** *KOS, qeyri-neft sektoru, dəstək mexanizmləri, ÜDM, stimullaşdırma, innovasiya.*

# STIMULATION OF THE DEVELOPMENT OF SMES IN THE NON-OIL SECTOR OF AZERBAIJAN

**Ülkər Sh. Salifova**
*Workplace: SOCAR "Azerigaz Production Association", Senior Engineer*
*E-mail:salifovaulker@gmail.com*
***ORCID:*** *0009-0009-9819-0941*

**Summary**
The article provides a comprehensive analysis of the directions for stimulating the development of small and medium-sized enterprises (SMEs) in Azerbaijan's non-oil sector. The author emphasizes that SMEs are a vital driving force of the modern economy, playing a strategic role in economic diversification, employment growth, regional development, export potential expansion, and the strengthening of innovation activities. By increasing economic flexibility, SMEs also make a significant contribution to improving social welfare and ensuring balanced economic growth.

The study notes that as a result of economic reforms and entrepreneurship support measures implemented by the Government of Azerbaijan in recent years, the share of the non-oil sector in GDP has increased significantly compared to 2010, reaching 65–67%. The economic activity, regional influence, and innovative potential of SMEs have also been on the rise. However, several constraints still limit their development. Restricted access to financial resources, high lending interest rates, weak integration into technology and innovation, infrastructure shortcomings, a lack of management skills and human capital, as well as difficulties in accessing international markets, prevent SMEs from fully realizing their potential.

The article identifies the main stimulating directions for overcoming these challenges. These include improving state support mechanisms, simplifying tax and administrative procedures, promoting digitalization and innovative initiatives, expanding export missions and international cooperation, and developing infrastructure and human capital, particularly in the regions.

In conclusion, the stimulation of SME development is considered a crucial factor for ensuring Azerbaijan's economic security, sustainable development, and social welfare. Strengthening SMEs will not only reduce the economy's dependence on oil revenues but also transform the non-oil sector into a key driving force of the national economy.

***Keywords:*** *SMEs, non-oil sector, support mechanisms, GDP, stimulation, innovation*

# СТИМУЛИРОВАНИЕ РАЗВИТИЯ МСП В НЕСЫРЬЕВОМ СЕКТОРЕ АЗЕРБАЙДЖАНА

**Улькер Ш. Салифова**
*Место работы: ГПО SOCAR «Азеригаз», ведущий инженер*
*E-mail:* salifovaulker@gmail.com
***ORCID:*** *0009-0009-9819-0941*

**Резюме**
В статье всесторонне анализируются направления стимулирования развития малых и средних предприятий (МСП) в несырьевом секторе Азербайджана. Автор подчеркивает, что МСП являются важнейшей движущей силой современной экономики, играя стратегическую роль в диверсификации экономики, увеличении занятости, обеспечении регионального развития, расширении экспортного потенциала и укреплении инновационной деятельности. Повышая гибкость экономики, МСП также вносят значительный вклад в улучшение социального благосостояния и обеспечение сбалансированного экономического роста.

В исследовании отмечается, что в результате проводимых Правительством Азербайджана в последние годы экономических реформ и мер поддержки предпринимательства доля несырьевого сектора в ВВП значительно возросла по сравнению с 2010 годом, достигнув 65–67%. Экономическая активность, региональное влияние и инновационный потенциал МСП также продолжают расти. Тем не менее, их развитию по-прежнему препятствуют определенные ограничения. К основным проблемам относятся ограниченный доступ к финансовым ресурсам, высокие процентные ставки по кредитам, слабая интеграция в технологические и инновационные

процессы, инфраструктурные недостатки, нехватка управленческих навыков и человеческого капитала, а также трудности выхода на международные рынки.

В статье определены основные направления стимулирования развития МСП: совершенствование государственных механизмов поддержки, упрощение налоговых и административных процедур, продвижение цифровизации и инновационных инициатив, расширение экспортных миссий и международного сотрудничества, а также развитие инфраструктуры и человеческого капитала, особенно в регионах.

В заключение подчеркивается, что стимулирование развития МСП является важным фактором обеспечения экономической безопасности, устойчивого развития и социального благосостояния Азербайджана. Укрепление МСП позволит снизить зависимость экономики от нефтяных доходов и превратит несырьевой сектор в одну из ключевых движущих сил национальной экономики.

***Ключевые слова:*** *МСП, несырьевой сектор, механизмы поддержки, ВВП, стимуляция, инновации.*

## GİRİŞ.

Müasir iqtisadiyyatların inkişafında Kiçik və orta sahibkarlıq (KOS) əsas dayaq rolunu oynayır. KOS-lar məşğulluq yaratmaqla bərabər, iqtisadiyyatın diversifikasiyasına, innovasiyaların tətbiqinə və sosial sabitliyin təmin olunmasına xidmət edir.

KOS-lar ÜDM-in əhəmiyyətli hissəsini təşkil edir, məsələn, 2024-cü ilin statistik göstəricilərinə əsasən Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin təxminən 99%-i məhz KOS-lardan ibarət olub, qeyri-neft sektorunun inkişafında mühüm əhəmiyyətə malikdir. Beynəlxalq təcrübəyə nəzər salaq, KOS-ların payı ÜDM-in orta hesabla 40–60%-ni təşkil edir və bu da onların dünya iqtisadiyyatında aparıcı qüvvə olduğuna işarədir (OECD, 2024)

KOS-lar əhalinin böyük qisminin işlə təmin olunmasına imkan yaradır. 2024-cü ilin statistikasına nəzər salaq, Azərbaycanda məşğul əhalinin təxminən 45%-i KOS sektorunda çalışır. Bu, regionlarda işsizliyin azaldılması, həmçinin yerli əhalinin sosial rifahının yaxşılaşdırılması baxımından vacib ünsürdür (KOBİA, 2024)

KOS-lar çevik qərarvermə mexanizminə malik olmaqla yanaşı bazar dəyişikliklərinə tez uyğunlaşa bilirlər. Belə ki, KOS-lar startapların formalaşması, yeni texnologiyaların sınaqdan keçirilməsi və innovativ məhsulların bazara çıxarılması üçün əlverişli mühit yaradır.

KOS-ların maliyyə resurslarına çıxışı məhdud olduğu üçün, dövlət tərəfindən onlara müxtəlif maliyyə institutları vasitəsilə güzəştli kreditlər və qrantlar təqdim olunur. Belə ki, 2024-cü il statistikasına əsasən KOS-lara verilən kreditlərin ümumi məbləği əvvəlki ilə nisbətən 12% artmış və faiz dərəcələri aşağı endirilmişdir. Həmçinin, "İxrac icmalı"na əsasən, qeyri-neft sektoru üzrə ixrac 2024-cü ildə 13% artaraq təxminən 3,1 milyard ABŞ dolları təşkil etmişdir.

**Azərbaycanda qeyri-neft sektorunun iqtisadiyyatdakı rolu.** Azərbaycanın iqtisadiyyatı uzun müddət neft və qaz gəlirlərinə əsaslanmışdır, lakin son illərdə aparılan məqsədyönlü islahatlar ölkənin iqtisadi inkişaf modelində mühüm dəyişikliklərə gətirib çıxarmışdır. İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı dövlətin sosial-iqtisadi siyasətinin ən prioritet istiqamətlərindəndir. Bu yanaşma iqtisadi təhlükəsizliyi təmin etməklə yanaşı, dayanıqlı inkişafın əsasını inşa edir.

Rəsmi statistikaya nəzər salsaq, 2024-cü ildə Azərbaycanın ümumi daxili məhsulunun (ÜDM) təqribən 65–67%-i qeyri-neft sektorunun payına düşmüşdür. Bu göstərici 2010-cu illə müqayisədə (təqribən 52–53%) əhəmiyyətli dərəcədə artırmışdır və iqtisadiyyatın diversifikasiyası istiqamətində mühüm nailiyyətdir (stat.gov.az, 2023).

Qeyri-neft sektoru ÜDM-də yüksək payı ilə yanaşı, məşğulluğun təmin olunmasında aparıcı mövqe tutur. Hazırda, Azərbaycanda iqtisadi fəal əhalinin təxmini olaraq, 70%-i bu sektorda çalışır. Kənd təsərrüfatı, turizm, tikinti, emal sənayesi, ticarət və xidmət sahələri əhalinin gəlir mənbəyini formalaşdıraraq, sosial rifahın yüksəlməsinə də mühüm təsir edir.

Son illərdə qeyri-neft ixracında mühüm artım müşahidə olunur, belə ki, 2024-cü ildə qeyri-neft ixracı təxminən 4,2 milyard ABŞ dolları təşkil etmişdir. İxrac strukturunda kənd təsərrüfatı məhsulları, qida sənayesi, kimya və metallurgiya sahələrinin xüsusi çəkisi yüksəlməkdd davam edir.

Qeyri-neft sektorunun inkişafı Azərbaycanın uzunmüddətli iqtisadi strategiyasında əsas aparıcı rol kimi müəyyən edilmişdir ki, bu sahənin inkişafı neft gəlirlərindən asılılığın azalmasına, və regionlarda yeni iş yerlərinin yaradılmasına şərait yaradır.

**KOS-ların qeyri-neft sektorunda rolu.** Azərbaycan iqtisadiyyatında kiçik və orta sahibkarlıq subyektlərinin (KOS) əhəmiyyəti artmaqda davam edir. Bu müəssisələr qeyri-neft sektorunun inkişafında əsas lokomotiv rolunu oynayaraq, iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir.

KOS-lar qeyri-neft sektorunun müxtəlif sahələrində fəaliyyət göstərərək ölkə iqtisadiyyatının diversifikasiyasına xidmət edir. Dövlət Statistika Komitəsinin 2024-cü il məlumatına əsasən, KOS-lar Azərbaycanın qeyri-neft ÜDM-nin təxminən 23–25%-ni formalaşdırmaqdadır.

KOS-lar əmək tutumlu sahələrdə fəaliyyət göstərərək məşğulluq imkanlarını genişləndirir. Hazırda Azərbaycanda qeyri-neft sektorunda məşğul əhalinin 75%-dən çoxu məhz KOS-larda çalışır. Bu isə onların sosial rifahın yüksəldilməsində və işsizliyin azaldılmasında mühüm rola malik olduğunu göstərir (DSK, 2024).

KOS-lar regionlarda da geniş fəaliyyət göstərərək, regional infrastrukturun inkişafına və yeni iş yerlərinin açılmasına zəmin yaradır. Bu da, öz növbəsində regionlararası sosial-iqtisadi bərabərliyin təmin olunmasında mühüm rola malikdir.

Son dövrlərdə ixrac yönümlü KOS-ların fəaliyyətində geniş artım müşahidə olunmaqdadır, belə ki, 2024-cü il statistikasına əsasən qeyri-neft ixracının təqribən 40%-ni məhz KOS-lar təşkil edir.

KOS-lar çevik idarəetmə sistemi və bazara tez uyğunlaşma qabiliyyətinə malik olduğundan yeni texnologiyaların və innovativ həllərin tətbiqində də fəal iştirak edir. Elektron ticarət, rəqəmsal xidmətlər və startap ekosistemi onların inkişaf perspektivlərini daha da gücləndirir.

Beləliklə, KOS-lar qeyri-neft sektorunun inkişafının əsas dayaqlarından biri hesab olunur və onların iqtisadiyyatda mövqeyinin gücləndirilməsi ölkənin sosial-iqtisadi inkişafına, məşğulluğun artmasına və ixrac imkanlarının genişlənməsində mühüm rol oynayır (KOBİA, 2024).

**KOS-ların inkişafında mövcud problemlər.** Azərbaycanda KOS-ların qeyri-neft sektorunda mühüm rol oynamasına baxmayaraq, onların tam potensialından istifadə olunmasına mane olan bir sıra problemlər mövcuddur. Bu problemlərin aradan qaldırılması KOS-ların rəqabətqabiliyyətini artırmaq və dayanıqlı inkişafını təmin etmək baxımından vacibdir. Bunlar aşağıdakılardır (SİF, 2024):

**1. Maliyyə resurslarına çıxışda çətinliklər**

- ➢ Sərmayə çatışmazlığı;
- ➢ Bank kreditlərinə çıxışın məhdud, faiz dərəcələrinin isə yüksək olması;
- ➢ Girov tələblərinin sərtliyi səbəbindən kiçik sahibkarların kredit almaqda çətinliyi;
- ➢ Dövlətin təqdim etdiyi güzəştli kreditlərin bütün sahibkarların ehtiyaclarını tam ödəyə bilməməsi.

**2. İnnovasiya və texnologiyalara məhdud çıxış** (ereforms.gov.az).

- ➢ KOS-ların çox hissəsinin müasir texnologiya və istehsal avadanlıqlarından istifadə edə bilməməsi;
- ➢ Elmi tədqiqat və innovasiya ilə əməkdaşlığın zəif olması;
- ➢ Rəqəmsal transformasiyada zəifliyin rəqabət qabiliyyətini aşağı salması.

**3. İnfrastruktur və bazara çıxış problemləri**

- ➢ Regional istehsal müəssisələrinin bəzilərinin fəaliyyətində logistika, nəqliyyat və kommunikasiya problemlərinin mövcudluğu;
- ➢ KOS-ların daxili və xarici bazarlara çıxışının məhdud olması;
- ➢ Satış kanallarının zəif inkişafı məhsulların bazarda tam realizəsinə maneə törədir.

**4. Hüquqi və inzibati maneələr**

- ➢ Sahibkarlıq fəaliyyətində bürokratik prosedurların müəyyən qədər mövcud olması;
- ➢ Vergi yükü və hesabatlılıq öhdəlikləri bəzən KOS-lar üçün çətinlik yaratması;
- ➢ Qanunvericilikdə dəyişikliklərə adaptasiya imkanlarının məhdudluğu.

**5. İnsan kapitalı və idarəetmə bacarıqlarının çatışmamazlığı**

- ➢ KOS-ların əksəriyyətində peşəkar menecment və idarəetmə təcrübəsinin yetərli olmaması;
- ➢ Kadr potensialı zəif olduğundan müasir idarəetmə metodlarının tətbiqinin çətin olması;
- ➢ Sahibkarların innovativ düşüncə, rəqəmsal savadlılıq və strateji planlaşdırma qabiliyyətinin zəif olması.

**6. Beynəlxalq rəqabətə hazırlıqda çatışmazlıqlar**

- ➢ KOS-ların böyük hissəsinin ixrac proseslərində kifayət qədər təcrübəyə sahib olmaması;
- ➢ Keyfiyyət standartlarına və sertifikatlaşdırma tələblərinə uyğunlaşmaqda çətinlik çəkmələri.

Beləliklə, mövcud problemlər KOS-ların qeyri-neft sektorunda inkişaf imkanlarını məhdudlaşdırır. Bu maneələrin aradan qaldırılması istiqamətində dövlət dəstəyi ilə yanaşı, sahibkarların özlərinin də innovasiyaya açıq olması və idarəetmədə yeni yanaşmalar tətbiq etməsi mühüm şərtdir (KOBİA, 2024).

**KOS-ların inkişafının stimullaşdırılması istiqamətləri.** KOS-ların qeyri-neft sektorunda potensialından daha səmərəli istifadə etmək üçün onların inkişafını stimullaşdıran kompleks tədbirlər həyata keçirilməlidir. Belə ki, dövlət dəstəyi, özəl sektor təşəbbüsləri və beynəlxalq əməkdaşlıqların qurulması bu sahədə yeni fürsətlər yaradır.

**1. Dövlət dəstək mexanizmlərinin gücləndirilməsi**

- Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kreditlərin həcminin artırılması və daha geniş sahibkar qruplarını əhatə etməsi;
- Vergi güzəştləri, subsidiyalar və sosial sığorta yükünün azaldılaraq KOS-lara əlavə dəstək verilməsi;
- Sahibkarlıq fəaliyyəti istiqamətində bürokratik prosedurların sadələşdirilməsi və elektron xidmətlərin genişləndirilməsi.

**2. İnnovasiya və rəqəmsallaşmanın təşviqi**

- Startapların və texnoloji layihələrin dəstəklənməsinin genişləndirilməsi;
- KOS-ların rəqəmsal platformalara keçidi istiqamətində təlimlər verilməsi;
- Elektron ticarət, onlayn ödəniş və logistik xidmətlərin inkişaf etdirilməsi.

**3. Xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi**

- İxrac missiyalarının və beynəlxalq sərgilərdə iştirakın dəstəklənməsi;
- Yerli məhsulların beynəlxalq keyfiyyət sertifikatlarına uyğunlaşdırılması;
- “Made in Azerbaijan” brendinin təşviqi və ixrac stimullarının gücləndirilməsi.

**4. Regional inkişaf və infrastruktur dəstəyi**

- Regionlarda sənaye parkları, aqroparklar və logistika mərkəzlərinin yaradılması;
- İnfrastruktur layihələri vasitəsilə KOS-ların istehsal və satış imkanlarının genişləndirilməsi;
- Regionlarda ixtisaslaşmış biznes inkubatorlarının fəaliyyətinin gücləndirilməsi.

**5. İnsan kapitalının inkişafı**

- Sahibkarlar və menecerlər üçün biznes idarəetməsi, maliyyə savadlılığı və rəqəmsal bacarıqlar üzrə təlimlərin təşkili;
- Universitet-sənaye əməkdaşlığının inkişaf etdirilməsi, gənclərin KOS sektoruna cəlb olunması;
- İnnovativ düşüncənin və sahibkarlıq mədəniyyətinin təşviq etdirilməsi.

**6. Beynəlxalq əməkdaşlıq və investisiyalar**

- KOS-lara xarici investisiyaların cəlb olunması;
- Beynəlxalq maliyyə institutları ilə birgə layihələrin həyata keçirilməsi;
- Beynəlxalq təcrübənin tətbiqi istiqamətində beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi.

Beləliklə, KOS-ların inkişafının stimullaşdırılması yalnız dövlətin iqtisadi siyasətinin prioritetlərindən biri olmamaqla bərabər, həm də dayanıqlı inkişafın əsas təminatçısı rolunu oynayır. Bu istiqamətdə həyata keçiriləcək addımlar qeyri-neft sektorunun daha sürətli inkişafına və Azərbaycanın beynəlxalq iqtisadi aləmdə mövqeyinin möhkəmlənməsinə zəmin yaradacaqdır. Azərbaycan iqtisadiyyatının uzunmüddətli dayanıqlılığı və rəqabət qabiliyyətinin artırılması üçün qeyri-neft sektorunun inkişafı prioritet məsələlərdəndir. Bu prosesdə kiçik və orta sahibkarlıq subyektlərinin (KOS) rolu əvəzolunmaz hesab olunur, belə ki, onlar həm ÜDM-də payın artmasına, həm də məşğulluğun təmin olunmasına, regional inkişafın güclənməsinə və ixrac potensialının yüksəlməsinə mühüm töhfə verirlər.

Lakin, maliyyə resurslarına məhdud çıxış, innovasiya və texnologiya çatışmazlığı, infrastruktur problemləri, kadr potensialının zəifliyi və beynəlxalq bazarlara çıxışdakı çətinliklər KOS-ların inkişafını


ISSN 2413-7235

ləngidən əsas amillərdən hesab olunur. Buna görə də KOS-ların potensialından maksimum istifadə etmək üçün stimullaşdırıcı tədbirlərin sistemli şəkildə həyata keçirilməsi vacib şərtdir (SOCAR, 2024).

**Təkliflər:**

1. **Maliyyə dəstəyi:** Güzəştli kreditlərin həcmi və əlçatanlığı artırılmalı, alternativ maliyyə alətləri (venture capital, biznes mələkləri, crowdfunding) inkişaf etdirilməlidir;
2. **Vergi və hüquqi mühit:** Vergi güzəştləri və inzibati prosedurlar sadələşdirilməli, KOS-ların fəaliyyətini asanlaşdıran normativ-hüquqi baza təkmilləşdirilməlidir;
3. **İnnovasiya və rəqəmsallaşma:** Startap ekosistemi gücləndirilməli, KOS-ların rəqəmsal texnologiyalara keçidini asanlaşdırmaq üçün dövlət və özəl sektor dəstəyi artırılmalıdır;
4. **İnsan kapitalı:** Sahibkarların idarəetmə, marketinq, ixrac, maliyyə savadlılığı üzrə bilik və bacarıqlarını artırmaq yönünüdə təlim və məsləhət proqramları genişləndirilməlidir.
5. **İxracın təşviqi:** “Made in Azerbaijan” brendi beynəlxalq bazarlarda daha geniş formada təbliğ və təşviq olunmalı, ixrac missiyalarına KOS-ların cəlbi genişləndirilməlidir.
6. **Regional inkişaf:** Aqroparklar, sənaye zonaları və biznes inkubatorlarının fəaliyyəti genişləndirilməli, regionlarda KOS-lar üçün əlverişli infrastruktur sistemi təmin olunmalıdır.
7. **Beynəlxalq əməkdaşlıq:** KOS-ların xarici tərəfdaşlarla əlaqələri dəstəklənməli, beynəlxalq maliyyə institutlarının resurslarından daha geniş istifadə etmələri üçün imkanlar yaradılmalıdır.

Qeyri-neft sektorunda KOS-ların inkişafının stimullaşdırılması Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, dayanıqlılığının təmin edilməsi və sosial rifahın yüksəldilməsi baxımından strateji əhəmiyyətə malikdir. Bu sahədə dövlət, özəl sektor və beynəlxalq təşkilatların birgə fəaliyyətinin təşkili ilə KOS-lar milli iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilə bilər.

## ƏDƏBİYYAT SİYAHISI


1. **Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR);** Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə sənəd (https://azerenerji.gov.az)
2. **Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi** – KOS-ların sayı, maliyyə göstəriciləri və qeyri-neft sektorunun ixracı ilə bağlı məlumatlar üçün (stat.gov.az)
3. **Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu;** Kiçik və orta sahibkarlığın inkişafı və dəstəklənməsi (https://ereforms.gov.az)
4. **Azərbaycanın rəqəmsal iqtisadiyyat və islahat portalı (E-Reforms)** – KOS-ların beynəlxalq bazarlara çıxışı və rəqəmsal transformasiya ilə bağlı məlumatlar (ereforms.gov.az)
5. **Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA / SMB.gov.az)** – KOS-lara dəstək, startap və inkubator proqramları haqqında məlumatlar (smb.gov.az)
6. **OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı);** OECD: Better policies for better lives (https://www.oecd.org)